**Əməkdaşlıq fəaliyyətləri**

- AQTA ilə Xorvatiyanın Kənd Təsərrüfatı və Qida Agentliyi arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində birbaşa əlaqələr qurulmuş, əməkdaşlığın dərinləşdirilməsi üzrə mütəmadi görüşlər və texniki mübadilələr həyata keçirilir.
- **2025-ci il 13 avqust** tarixində Agentlik Kollegiyasının 61 nömrəli Qərarına əsasən Xorvatiyanın qida obyektləri üzrə təsdiq sistemlərinin ekvivalentliyinin tanınması qərara alınmışdır.
- **2024-cü il 15 iyul** tarixində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Agentliyin tabeliyində Azərbaycan Qida Təhlüləsizliyi İnstitutunun və Xorvatiyanın Kənd Təsərrüfatı və Qida Agentliyinin nümayəndələrinin iştirakı ilə virtual görüş keçirilmişdir. Görüş zamanı iştirakçılara Agentliyin və İnstitutun fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilmiş, “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Xorvatiya Respublikasının Kənd Təsəsrrüfatı Nazirliyi arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” layihəsi və digər sahələrdə ikitərəfli əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparılmışdır.
- “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunluğu yoxlamaq məqsədilə hazırkı dövrədək Xorvatiyanın “Ledo Plus D.O.O.” süd və süd məhsullarının emalı müəssisəsində 2024-cü ilin sentyabr ayında qiymətləndirmə aparılmış və təsdiq olunmuşdur.
- Müvafiq sahələrdə əməkdaşlığın təşviqi, normativ bazanın təkmilləşdirilməsi məqsədilə Agentlik tərəfindən “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Xorvatiya Respublikasının Kənd Təsərrüfatı və Qida Agentliyi arasında bitki mühafizəsi və karantini sahəsində Anlaşma Memorandumu” və “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Xorvatiya Respublikasının Kənd Təsəsrrüfatı Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” layihələri hazırlanmış və hazırda Xorvatiya tərəfi ilə razılaşdırılması üzrə işlər aparılmaqdadır.
- İki ölkə arasında qida məhsullarının dövriyyəsi, ikitərəfli normativ bazanın uyğunlaşdırılması, müəssisələrin qeydiyyatı və tanınması, epizootik nəzarət təcrübələrinin paylaşılması, sərhəd nəzarəti və ixrac prosedurlarının əlaqələndirilməsi üzrə mütəmadi texniki görüşlər və səfərlər keçirilib.